https://doi.org/10.59849/3006-1342.2026.1.28
UOT 94(479.24)

*Aytən Firdovsi qızı Məhərrəmova*
*Azərbaycan Dillər Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: ayten.meherremova.84@mail.ru*
*ORCID ID: 0000-0002-9193-2887*

# 1948–1953-CÜ İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-DƏN DEPORTASİYASI SSRİ-NİN TÜRKİYƏYƏ ƏRAZİ İDDİALARI KONTEKSİNDƏ

*İkinci Dünya müharibəsi və ondan sonrakı dönəmdə xalqlar həbsxanası hesab olunan çar Rusiyasının başqa sifəti olan SSRİ məkanında deportasiya və etnik təmizləmə siyasəti imperiya üçün yarnmış "təhlükəni" qabaqlamaq, zorla köçürməyə məruz qalacaq xalqların kapitalist ölkələri-xüsusilə Almaniya və Türkiyə ilə yaxınlaşması, bununla da "vətənə xəyanət" etdiklərini əsas gətirərək həyata keçirilmişdir. Maraqlıdır ki, şimali Qafqaz xalqları daha çox yuxarıda qeyd olunan məsələlərlə əlaqələndirilib deportasiya edildiyi halda, azərbaycanlıların tarixi torpaqlarından-Ermənistan SSR ərazisindən deportasiyası zamanı artıq II Dünya müharibəsi bitmiş və SSRİ qalib dövlət kimi mövqeyini xeyli möhkəmləndirmişdir. Tədqiqat nəticəsində aydın olur ki, azərbaycanlıların deportasiyası SSRİ-nin Türkiyəyə ərazi iddiası-Anadolunun şərq əyalətlərinin, xüsusən də Qars, Ərdahan və ətraf ərazilərin rəsmi Moskvaya verilməsi konteksində artan təzyiqlər fonunda həyata keçirilməsinə başlanılmışdır.*

*Açar sözlər:* SSRİ, Türkiyə, ərazi iddiaları, deportasiya, II Dünya müharibəsi, 1948-1953-cü illər

## *Giriş*

Süni şəkildə "xalqlar dostluğu" prisiplərinin yüksək tutulduğu SSRİ-də azərbaycanlıların 1948-1953-cü illərdə kütləvi deportasiyası əslində Moskvanın milli siyasətinin imperiyanın maraqlarının qorunub saxlanılmasına xidmət etdiyini və zorla tərkibinə daxil etdikləri xalqlara sıranan sovet ideoloji sisteminin çürüklüyünü nümayiş etdirmiş oldu.

Tədqiqat üçün seçilmiş mövzu kifayət qədər aktuallıq kəsb etməkdədir. 44 günlük Vətən müharibəsindən sonra həm 1948-1953-cü illərdə, həm də 1988-1991-ci illərdə Ermənistan SSR ərazisindən deportasiya edilmiş azərbaycanlıların dədə-baba torpaqlarına qayıtmasına inam artmış və demək olar ki, bu proses yeni bir mərhələyə qədəm qoymuşdur. Hələ 1997-ci il dekabr ayının 18-də Ümummilli lider H.Əliyev 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının tarixi, hüquqi və siyasi tərəflərinin öyrənilib, geniş ictimaiyyətə çatdırılması haqqında fərman vermiş və bununla bağlı dövlət komissiyası yaradılmışdır.

Bu istiqamətdə "Qərbi Azərbaycan İcması"nın yaradılması və Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan ziyalıları ilə görüşündəki çıxışını qayıdış istiqamətində "yol xəritəsi" hesab etmək olar. Son dövrdə Qərbi Azərbaycan tarixi, mədəniyyəti, etnoqrafiyası, ədəbiyyatı və s. sahələrdə aparılan tədqiqat işlərinin sayı artmaqdadır. Hesab edirəm ki, apardığımız kiçik tədqiqat işi də bu istiqamətdə görülən işlərə az da olsa töhfə verə bilər.

**Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası SSRİ-nin Türkiyəyə ərazi iddiaları konteksində.** Məruz qalan xalqların qarşılaşdığı və sonrakı bir-neçə yüz il ərzində təsirləri silinməyən deportasiya imperiyaların xislətinə uyğun olan bir hadisə və izlədikləri siyasətlərin tərkib hissəsi olmuşdur. Stalinin vəfatından sonra başlanan mülayimləşmə gedişində SSRİ-də aparılmış deportasiyalar, onların baş vermə səbəb və nəticələrinin araşdırılmasına diqqət artsa da, təəssüflər olsun bu proses azərbaycanlıların 1948-1953-cü illərdə kütləvi şəkildə deportasiya olunmasının tədqiqindən yan keçdi. Hətta, baxmayaraq ki, 1956-cı ildə keçirilən məşhur XX qurultaydan sonra sovet cəmiyyəti ümumilikdə liberallaşmaya doğru ciddi addımlar atılmış oldu, yenə də azərbaycanlıların qeyd olunan deportasiyası tədqiqatlara cəlb edilməkdən kənarda saxlanılmışdır. 80-ci illərin ortalarında SSRİ-də irəli sürlən "yenidənqurma" və "aşkarlıq" prosesləri gedişində 1989-cu ilin noyabr ayında qəbul olunmuş "Deportasiya olunmuş xalqlara qarşı həyata keçirilmiş repressiyaların qeyri-qanuniliyi, onlara qarşı törədilmiş cinayətlərin etirafı və həmin xalqların hüquqlarının təmini haqqında" bəyannamədə də 1948-1953-cü illərdə baş vermiş azərbaycanlıların deportasiyasından danışılmırdı [7, s. 10, 18]. Azərbaycanlıların 1948-1953-cü illərdə deportasiyasına II Dünya müharibəsinin gedişində və xüsusən də sonlarına yaxın çeçen, kalmık, çərkəz, ahıska türkləri və digər azsaylı xalqların məcburi şəkildə köçürülməsi üçün göstərilən, sovet rəhbərliyi tərəfindən uydurulan "alman faşizmi ilə əməkdaşlıq" məsələləri aid edilmirdi. Təəssüflər olsun ki, bəzən azərbaycanlıların sözügedən dövrdə deportasiyasının həm dövlət səviyyəsində qəbul edilən sənədlərdə və ayrı-ayrı tədqiqatlarda yer almamasının səbəbi kimi də məhz bu amil göstərilir [11, s. 121-122]. Bu tərzdə yanaşma tarixi gerçəkliyi əks etdirmir. Əvvəla, azərbaycanlıların bəhs olunan deportasiyasının gündəmə gəlməsi müharibənin sonlarına yaxın meydana gəlmişdir. Bununla bağlı hər hansı rəsmi sənədin tapılıb aşkara çıxarılmasına lüzum yoxdur. Azərbaycanlıların 1948-ci ildə başlanan deportasiyası SSRİ-nin Türkiyəyə olan birbaşa ərazi iddiaları ilə əlaqədar meydana çıxmışdır.

Burada haşiyəyə çıxaraq qeyd etmək lazımdır ki, ermənilər genetik xüsusiyyətlərindən irəli gələrək digər xalqlarla birgə yaşayışa dözümsüz və qeyri tolerant xalqdır. Ermənistan respublikasının günümüzdə etnik tərkibinə diqqət yetirmək bunu təsdiqləməyə imkan veriir. Cənubi Qafqazda Gürcüstan və Azərbaycan etnik baxımdan daha rəngarəng olduğu halda, Ermənistan isə mono etnik tərkibə malikdir. Problemin digər maraq doğuran tərəfi ondan ibarətdi ki, yuxarıda adları çəkilən xalqların deportasiyası SSRİ-yə hücum edən və torpaqlarının böyük hissəsini işğal edən Almaniya ilə "əməkdaşlıqla" əlaqələndirilirdisə, azərbaycanlıların deportasiyası isə əksinə qalib SSRİ-nin təcavüzkar siyasətinin-Türkiyəyə olan ərazi iddialarının nəticəsi kimi həyata keçirilmişdir. Ermənistan SSR xususi xidmət orqanlarının hazırladıqları arayışlardan da məlum olur ki, azərbaycanlıların deportasiyasında onlara etimadsızlıq, güvənilməmə, Türkiyə ilə sərhəddə azərbaycanlıların kompakt halında yaşamalarının "təhlükəli" hesab edilməsi də mühüm səbəblər sırasında idi [11, s. 122-123]. Göründüyü kimi azərbaycanlıların deportasiyası zaman etibarilə yuxarıda adları çəkilən xalqların məcburi köçürülməsindən ciddi fərqlənmir. Amma, azərbaycanlıların deportasiyası SSRİ-nin təcavüzkar siyasətinin məntiqi nəticəsi kimi həyata keçirildiyindən sovet ittifaqının süqutuna qədər bu qanlı cinayətin həm hüquqi, həm də elmi müstəvidə araşdırılmasına imkan verilməmişdir.

II Dünya müharibəsi illərində şimali Qafqaz xalqlarının, xüsusilə də kalmıkların deportasiyası ilə bağlı tədqiqat aparan K.N.Maksimov bu qənaətə gəlir ki, məcburi şəkildə köçürülmənin səbəbi tək etnik təmizləmə ilə bağlı olmayıbdır. Müharibənin ilk illərində Almaniyanın SSRİ ərazisində əldə etdiyi hərbi uğurların, İ.Staln və onun komandasının səhv siyasətinin nəticəsi olaraq cəbhədə yaşanan uğursuzluqların, böyük sayda insan təlafatı və

maddi zərərin günahkarı kimi azsaylı xalqları suçlamaq istəyi ilə bağlı olmuşdur [11, s. 122-123; 4, s. 166-167].

P.M.Polyan isə şimali Qafqaz xalqları və Krım tatarlarının deportasiyasını II Dünya müharibəsində almanlarla əməkdaşlığın qarşısını almaq üçün "praflaktik tədbirlər" kimi deyil, sovet hakimiyyətinə qarşı edilmiş xəyanət və cinayətlərə adekvat olaraq "ədalət tədbirləri" kimi qiymətləndirir. Təbii ki, bu yanaşma tarixi gerçəkliyi əks etdirmir. Unutmaq olmaz ki, müharibə gedişində azsaylı kalmık xalqının 8 min nəfəri cəbhədə göstərdiyi qəhrəmanlığa görə SSRİ rəhbərliyi tərəfindən müxtəlif medallarla təltif edilmişdir [4, s. 166-167]. Bu tərz yanaşmaların heç biri 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən deportasiya edilməsinin səbəbi sırasına daxil edilə bilməz.

Azərbaycanlıların Ermənistan SSR ərazisindən (əslində tarixi Azərbaycan torpaqlarından) 1948-1953-cü illərdə deportasiyası SSRİ-nin II Dünya müharibəsindən sonra Türkiyəyə olan ərazi iddiaları kontrksində təhlil edilməsi problemin daha ətraflı öyrənilməsinə şərait yaratmış olardı. SSRİ-nin Türkiyəyə ərazi iddialarında Eçmiədzin kilsəsinin xidmətindən yararlanmaq Kremldə razılaşdırılmışdır. Burada haşiyəyə çıxaraq qeyd edək ki, hələ çar Rusiyası dönəmində Rusiyanın Osmanlı dövlətinə qarşı siyasətində Eçmiədzin kilsəsi və onun emisarları fəallıqları ilə seçilmişdir. 1920-1930-cu illərdə bolşevik rəhbərlərinin apardığı ateist təbliğat dinin və din xadimlərinin mövqeyini zəiflətsə də II Dünya müharibəsi zamanı isə əhalini dövlətin siyasəti ətrafında birləşdirmək zərurəti dinə olan münasibətin müsbətə doğru dəyişməsini qaçılmaz etdi. Təsadüfi deyildir ki, Zaqafqaziya Müsəlmanları İdarəsi də bu illərdə-1944-cü ildə yenidən bərpa olundu. Bolşevik hökümətinin dinə qarşı çıxışları Eçmiədzin kilsəsindən də yan keçməmişdir. Faktiki olaraq onun da fəaliyyəti dayandırılmışdır. Katalikos I Xoren isə müharibə öncəsi-1938-ci ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən qətlə yetirildikdən sonra 1945-ci ilə qədər bu vəzifəyə təyinat, yaxud seçki olmamışdır [8, s.87]. Eçmiədzin kilsəsi qeyd olunan zaman müddətində rəsmi olaraq fəaliyyətini dayandırsa da katolik kilsəsi başçısının müavini Gevorq Gevorçyanın Stalinlə olan şəxsi yaxınlığı və sovet rəhbərliyi ilə isti münasibətləri 1945-ci ilin iyununda Eçmiədzin kilsəsinin fəaliyyətinin yenidən bərpa olunmasına şərit yaratdı. Yuxarıda qeyd etdiyimiz kimi, bu həm də bütövlükdə SSRİ-də dinə və din xadimlərinə münasibətin dəyişməsi fonunda gedirdi. Bundan əlavə, Eçmiədzinin kilsəsinin fəaliyyətinin bərpası həm də SSRİ-nin Türkiyə olan ərazi iddialarının rəsmən siyasi gündəmə gəlməsi ilə təxminən eyni vaxta təsadüf edirdi. Təsadüfi deyildir ki, İ.Stalin Eçmiədzin kilsəsinin fəaliyyətinin bərpasından sonra onun yaxın gələcəkdə fəaliyyəti üçün "yol xəritəsi" vermiş və burada göstərirdi ki, seçiləcək katalikosun başlıca işi SSRİ-nin Türkiyənin şərq vilayətlərinə olan ərazi iddialarının əsaslandırması olmalıdır [8, s. 92]. İ.Stalin bildirirdi ki, Türkiyədən alınan ərazilər Ermənistanla sərhəddir və həmin torpaqlarda ermənilər yaşamalıdır və bunun üçün Eçmiədzin kilsəsi dünya ermənilərini bu torpaqlara qayıtması istiqamətində fəal təbliğat işləri aparmalıdır. Kremldə hazırlanmış plana uyğun olaraq yeni katalikos VI Gevorq Stalinə müraciət edərək Türkiyənin şərq əyalətlərini "itirilmiş vətən" hesab edərək tezliklə həmin torpaqlara qayıdacaqlarına ümüid etdiklərini dilə gətirirdi. Məktubun sonunda dünyaya səpələnmiş yüz min ermənənin "öz doğma vətənlərinə" qayıdacqlarına inandığını bildirməsi, əslində SSRİ rəhbərliyi tərəfindən kilsənin qarşısında qoyduğu başlıca vəzifə idi [2, №6, 1991].

Siyasi prosesləri xronoloji ardıcıllıqla izlədikdə aydın şəkildə görünür ki, XVII, XVIII və XIX əsrlərdə Avropa dövlətləri və Rusiya Osmanlı dövlətinə qarşı "erməni məsələsi"ndən təzyiq vasitəsi kimi istifadə etmişdir. "Erməni məsələsi" 1877-1878-ci illər Rus-Türk müharibəsinin yekunu olaraq meydan gəldiyi deyilsə də, bura snoska yaz bunun kökləri daha əvvəlki əsrlərə gedir. Səfəvi və Osmanlı dövlətlərində ticarət sahəsində xeyli irəliləmiş və imtiyaz əldə etmiş ermənilər dini missiyadan daha çox siyasi təşkilatlanma-"dövlət yaratmaq"

işləri ilə məşğul olan Eçmiədzin kilsəsinin rəhbərliyi ilə Avropa və Rusiyadan tərkibində yaşadığı adları çəkilən dövlətlərə onların xeyrinə etdikləri xəyanətlərin müqabilində "dövlət yaratmaq işinə" yardım etmələrini istəmişlər. XX əsrin ortalarında da "erməni məsələsi" yenə böyük güclərin-SSRİ-nin maraqları üçün yenidən gündəmə gətirilmiş və "Eçmiədzin kilsəsi" də öz missiyasını "şərəflə" yerinə yetirməkdə idi. SSRİ rəhbərliyi erməni məsələsini yenidən gündəmə gətirməklə Türkiyənin şərq əyalətlərini zəbt etmək və dünya ermənilərini həmin ərazilərə köçürməklə eksponsionist siyasətini reallışdırmaqla yanaşı, həm də özünün cənub sərhədləri üçün ciddi təhlükə hesab etdiyi Türkiyə boğazlarında daha geniş hüquqlarının təmin olunmasına çalışırdı. "Erməni məsələsi" isə burada həmçinin təzyiq vasitəsi kimi də istifadə olunurdu.

1948-1953-cü illərdə baş vermiş məlum depotasiya həm də SSRİ-Türkiyə münasibətləri konteksində araşdırılması onun başvermə səbəblərinin düzgün müəyyənləşdirilməsi üçün olduqca vacib məsələdir. Almaniyanın 1941-ci il iyunun 22-də SSRİ-yə hücumundan sonra Ankara hököməti SSRİ ilə münasibətlərini qoruyub saxlamağa çalışmışdır. Sovet rəhbərliyi də Türkiyənin Almaniyaya meyillənməsini istəmir və həm rəsmi şəxslərin dilindən, həm də tamamilə dövlətin nəzarətində olan mətbuat səhifələrində anti Türkiyə yazılara və ifadələrə yer verilməməsinə çalışırdı. Amma, bununla belə Türkiyəyə tamamilə etibar edilmirdi. Təsadüfi deyildir ki, 1941-ci il iyulun 4-də Moskvada Cənubi Qafqaz respublikalarının rəhbərləri ilə görüşdə Stalin onları xəbərdar edirdi ki, cəbhədən xeyli aralı olmalarına baxmayaraq ərazilərinizi təhlükəli zonada yerləşir və Türkiyənin bitərəfliyinə axıra qədər sadiq qalacağına inana bilmərik [6, s. 76].

Nə qədər ki, Almaniya qoşunları sürətlə SSRİ-nin içərilərinə doğru irəliləyirdi, rəsmi Moskvanın Türkiyəyə olan münasibəti də xeyli yumşaq idi.

1941-ci ilin avqustunda Britaniya və Sovet qoşunlarının İrana daxil olmasından sonra İranın Cənubi Azərbaycan hissəsinin Türkiyə ilə olan sərhədləri Sovet qoşunlarının nəzarəti altına keçdi. Əgər 10 avqust 1941-ci ildə SSRİ Böyük Britaniya ilə birlikdə Türkiyənin ərazi bütövlüyünün toxunulmazlığı və boğazlar məsələsində Montrö konvensiyasının şərtlərinin dəyişdirilməməsinin tərəfdarı olduğunu bildirirdisə, İrana hərbi müdaxilədən sonra Türkiyə ilə sərhəddə "kürd məsələsi ilə oynamağa" başladı ki, bu da qarşı tərəfə növbəti təzyiq vasitəsi kimi görünürdü. SSRİ rəhbərliyi bütün cəhdlə çalışırdı ki, Almaniya üzərində qəti üstünlüyə sahib olana qədər Türkiyənin bitərəfliyini qoruyub saxlasın. Hətta müəyyən ərazi güzəştləri-Bolqarıstanı cəzalandırmaqla Burqası, yunanların üstünlük təşkil etdiyi Dodakenez adalarını və əlavə olaraq Ege dənizində bir-neçə adanı, Suriya torpaqlarının bir hissəsini Türkiyəyə vəd etməklə buna nail olmağa çalışırdı. Yuxarıda sadanalınan ərazilərin Türkiyəyə verilməsi məsələsi 16 dekabr 1941-ci ildə Moskvada Britaniyanın Xarici İşlər naziri A.İdenlə görüşündə İ.Stalin dilə gətirmişdir [12, s. 37-38; 3, s. 9-10].

İkinci Dünya müharibəsinin yekunlarına doğru SSRİ qalib dövlət kimi ətraf regionlarla-xüsusilə də Yaxın Orta Şərq dövlətləri ilə münasibətlərini yenidən gözdən keçirmək üçün Cənubi Qafqaz respublikalarında Xarici İşlər Komisarlığı vəzifələrinin yaradılmasını lazım bildi. 1944-cü ildə reallaşdırılan bu yerli dövlət orqanının qarşısına qoyulan başlıca vəzifə Sovetlər Birliyinin Türkiyə və İran siyasətinin yenidən işlənib hazırlanmasında yaxından iştirak etsinlər. Əslində isə SSRİ-nin mümkün eksponsionist siyasətinin həyata keçirilməsində sərhədyanı respublikaların bilavasitə cəlb olunması bütün istiqamətlərdə sovet rəhbərliyinin işinə yarayırdı.

1945-ci il mayın 8-də Almaniya təslim aktını imzaladıqdan sonra Avropada müharibə başa çatmış oldu. ABŞ və Qərbi Avropa dövlətləri əməkdaşlıq üçün yeni imkanların açıldığını bildirsə də, SSRİ hököməti başda İ.Stalin olmaqla əldə etdikləri qələbənin eyforiyasına qapılaraq yaranmış hərbi-siyasi şəraiti sərhədlərinin genişləndirilməsi üçün yaxşı fürsət hesab etdilər. Sovetlər Birliyinin bu eksponsiyası Avropa, Yaxın Orta Şərq, Uzaq Şərq kimi böyük

bir coğrafiyanı əhatə edirdi. Tədqiqatımız daha çox SSRİ-Türkiyə münasibətləri istiqamətində olduğundan Kremlin Ankara hökümətinə olan ərazi iddiaları üzərində dayanacağıq. Sovet rəhbərliyi hesab edirdi ki, SSRİ-nin cənub sərhədləri etibarlı qorunmur və bunu doğuran başlıca səbəb isə Türkiyə boğazlari üzərində rəsmi Moskvanı təmin etməyən Montre konvensiyası ilə Türkiyəyə böyük üstünlüklərin verilməsidir. İkinci istiqamət isə Anadolunun şərq ərazilərinin, xüsusən də Qars və Ərdahanın Türkiyədən alınaraq Ermənistana ilhaq edilməsi təşkil edirdi. Bununla bağlı 1945-ci il iyunun 10-da SSRİ Xarici İşlər komisarı V.Molotov Türkiyənin Moskvadakı səfiri S.Sarperə SSRİ-nin boğazlara birgə nəzarət və həmin regionda onun hərbi bazalarının yaradılmasına razılıq verilməsi, eləcə də Qars və Ərdahanın rəsmi Moskvaya güzəştə gedilməsi ilə bağlı tələbləri təqdim edildi. 18 iyunda Sovetlərin bu tələbi ultimatum şəklində Türkiyəyə təqdim edildi [6, s. 148].

Həmin vaxt Sovet qoşunları İranın şimalında fəaliyyət göstərirdi. SSRİ Cənubi Azərbaycandakı milli hərakata dəstək verməklə kifayətlənməyib, İranın şimalında zəngin neft yataqlarını mənimsəmək və ümumilkdə Yaxın Orta Şərqdə möhkəmlənmək üçün İran ərazisindən plasdarm kimi istifadə etməyə çalışırdı. Yuxarıda qeyd olunan bu məslələr 1945-ci il iyunun 21-də İ.Stalinin "İranın şimal ərazilərində neftlə bağlı geoliji kəşfiyyat işlərinin aparılması haqqında" [1, v. 161], və həmin ilin 6 iyul tarixində imzaladığı "Cənubi Azərbaycan ərazisi də separatçı hərakatların təşkili haqqında" [1, v. 184] qərarları ilə xeyli aydınlanmış olur. SSRİ-nin Cənubi Azərbaycanda hərbi mövcudluğu Türkiyənin şərq əyalətlərinin işğalı üçün də strateji baxımdan imkan açmış olurdu. Bu isə özlüyündə SSRİ ilə Türkiyə arasında münasibətləri gərginləşdirirdi. Türkiyəyə təzyiqlərdən biri də 1925-ci ildə SSRİ ilə Türkiyə arasında dostluq və bitərəflik haqqında müqavilənin 1945-ci ilin 19 mart tarixində vaxtının uzadılmamasına Kreml tərəfindən verilən qərar olmuşdur [13, s. 10]. Bu özlüyündə müharibədən qalıb çıxmış SSRİ-nin Türkiyə ilə olan münasibətlərinin yaranmış reallıqları qəbul edərək, onun yuxarıda qeyd olunan tələbləri nəzərə alındığı şəraitdə əvvəlki tərzdə davam etdirilməsinin mümkünlüyü üçün şərtlər kimi başa düşülə bilər. 1945-ci ildə SSRİ XKS-də hazırlanmış arayışda qeyd olunurdu ki, Türkiyə ümumilikdə 26 min kvadrat kilometr sovet ərazisini işğal altında saxlayır ki, bunun da 20500 kvadrat kilometri Ermənistan, 5500 kvadrat kilometri isə Gürcüstanın ərazisi olduğu bildirilirdi. Maraqlıdır ki, həmin sənəddə Türkiyənin Qars, Ərdahan əyalətləri Ermənistan SSR ərazisinin 80 %-ə qədər olduğu göstərilirdi [6, s. 213]. Sovet rəhbərliyi Türkiyənin şərq əyalətlərinə ərazi iddialarını belə əsaslandırırdı ki, 1921-ci ilin martında RSFSR və Türkiyə arasında imzalanmış Moskva müqaviləsi və onun davamı olaraq həmin ilin 13 oktyabr tarixində bağlanan Qars anlaşması zamanı rəsmi Moskvanın hərbi cəhətdən gücsüz olması, ölkə daxilindəki vətandaş müharibəsi və digər məsələlərdən dolayı zəifliyi ucbatından həmin ərazilər Türkiyəyə "güzəştə" gedilmişdir. İndi isə SSRİ II Dünya müharibəsinin qalib dövləti kimi həmin əraziləri geri qaytarmaq hüququna sahibdir. Maraqlı və bir qədər də təəccüb doğuran cəhət onda idi ki, Türkiyədən alınacaq torpaqların Ermənistan və Gürcüstan arasında bölüşdürülməsi məsələsində də ciddi fikir ayrılıqları yaranmışdır. Belə ki, gürcülər Batum dairəsinin cənubunda yerləşən Artvin, Ərdahan və Oltı ərazilərinin Ermənistana veriləcəyindən narazılıqlarını rəsmi şəkildə sovet rəhbərliyinə bildirmişdir. Yuxarıda adları çəkilən ərazilərin tarixi-etnoqrafik baxımdan Gürcüstana məxsus olması ilə bağlı rəsmi Tblisi tərəfindən işlərə başlanılmışdır.

SSRİ-nin Türkiyə boğazlarında xüsusi imtiyazlar əldə etmək iddiasının Anadolunun şərq ərazilərinə sahiblənmək üçün təzyiq vasitəsi kimi istifadə edilməsi ilə bağlı da fikirlər mövcuddur.

Əslində 1925-ci il müqaviləsinin Sovetlər Birliyi tərəfindən uzadılmaması İ.Stalin tərəfindən böyük səhv addım idi. SSRİ-ninTürkiyənin şərq ərazilərinə iddiaları və boğazlarda xüsusu səlahiyyətlər tələb etməsi rəsmi Ankaranı ABŞ ilə daha sürətlə yaxınlaşmaya vadar

etdi. 1947-ci ildə Trumen doktrinasının qəbul edilməsi ilə ABŞ SSRİ təzyiqləri qarşısında Türkiyəni tək qoymayacağını nümayiş etdirdi. "Trumen doktrinası"nın qəbulu və ABŞ-nin Türkiyəyə yardımını nəzərdə tutan müqavilənin imzalanması faktiki olaraq rəsmi Moskvanın təzyiqlərinin qarşısını almış oldu. Müharibədən sonra qələbə eyforiyasına qapılan SSRİ rəhbərliyinin kobud və təhdid dolu siyasətinin nəticəsi olaraq 1920-ci illərin əvvəllərində yaran SSRİ-Türkiyə əməkdaşlığı müharibədən sonra iki rəqib düşərgə ilə əvəzlənmiş oldu. Türkiyəni öz təhlükəsizliyinin təmin edilməsi üçün sürətlə Qərbə-NATO-ya inteqrasiya etməsi üçün əlverişli şərait yaratmış oldu.

Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası üçün dünya ermənilərinin Ermənistana repatriasiyası məsələsi gündəmə gətirildi. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən kütləvi deportasiya prosesini hazırlamaq üçün ilk növbədə dünya ermənilərinin repartasiyasını həyata keçirmək lazım gəldi. Reportasiya prosesinin hazırlanması isə SSRİ-nin Türkiyəyə ərazi iddiaları ilə birbaşa bağlı idi. 6 aprel 1945-ci il tarixində Ermənistan SSR rəhbərliyi İ.Stalinə ünvanladığı məktubda əsaslandırmağa çalışırdı ki, dünyanın müxtəlif ölkələrinə ermənilərin səpələnməsinin səbəbi Türkiyə olmuşdur. Birici Dünya savaşında Osmanlı dövlətinin yeritdiyi siyasətin nəticəsi olaraq 1milyondan çox erməni yaşayış yerlərini tərk edərək dünyanın müxtəlif ölkələrinə səpələnmişdir. Həmin ölkələrdə yaşayan ermənilər adi vətəndaş hüquqlarından yararlana bilmir və onlar sovet Ermənistanına qayıtmaq istəyirlər. Maraqlıdır ki. Ermənistan SSR rəhbərliyinin qeyd olunan məktubundan 1 gün sonra-7 apreldə ABŞ-dakı Erməni Milli Komitəsi İ.Stalinə teleqram göndərərək "erməni məsələsi"nin "tarixinə" müraciət edərək ermənilərin geri qayıtmasının vacibliyi və onun faydalarından bəhs edir və bunun üçün sovet Ermənistanın sərhədlərinin Türkiyə hesabına genişləndirilməsinin vacibliyi bildirilirdi [6, s. 152-153].

Proseslərin belə xronoloji ardıcıllıqla cərəyan etməsi onun bir mərkəzdən-Kremldən idarə olunduğu qənaətinə gəlməyə əsas verir.

1945-ci ildə BMT-nin San-Fransiskoda keçirilən konfransında Amerikadakı Erməni Milli Şurası və diasporası tərəfindən hazırlanmış bəyanat təqdim edilmişdir. Bəyanatda ermənilərin tarixi qədim dövrlərə aparılıb çıxarlır və türklərə qarşı mübarizədə onların rolu az qala xristian dünyasının xilaskarı kimi təqdim olunurdu. Bəyanatın məqsədi tam olaraq onun axırıncı cümlələrində öz əksini tapmışdır. Sonluqda qeyd olunurdu ki, dünyaya səpələnmiş ermənilərin vətənlərinə qayıtması üçün Türkiyədən "erməni vilayətləri" alınıb sovet Ermənistanına verilməlidir. Ermənilərin repatriasiyası və Türkiyənin şərq vilayətlərinin Ermənistana verilməsinə daha çox diqqəti çəkmək və ona dünya əhəmiyyətli hadisə kimi yanaşmaq üçün adıçəkilən bəyanat V.Qladstondan "Ermənistanı xilas etmək-svilizasiyanı xilas etmək deməkdir" statı ilə yekunlaşır [6, s. 155]. Göründüyü kimi tədqiqat üçün seçdiyimiz mövzunun əhatə dairəsi xeyli genişdir və özündə bütöv bir sıra məsələləri ehtiva etməkdədir. Erməni diaspora təşkilatları ABŞ, Livan, Suriya və Avropada Anadolununun şərq əyalətlərinin, xüsusən də Qars, Ərdahan və ətraf ərazilərin Türkiyə tərəfindən 1920-ci illərin əvvəllərində "zəbt edilməsi" ilə bağlı geniş təbliğat işləri aparır və həmin torpaqların tezliklə sovet Ermənistanına geri qaytarılması üçün səy göstərmələrinə çağırırdı. Hətta, 1946-cı ilin may ayında ABŞ-dəki erməni diaspor təşkilatları birləşərək BMT Baş Katibinə məktub ünvanlayaraq, "Qərbi Ermənistan torpaqları-Qars, Ərdahan, Ərzurum, Bitlis, Van və Trabzon"un Türkiyə tərəfindən "işğal olunduğunu" və dünyada yaşayan 4 milyon ermənin öz doğma vətənlərinə qayıtmaları üçün həmin ərazilərin geri qaytarılmasının vacibliyini bildirmişdirlər [9, s. 268-269].

II Dünya müharibəsi dönəmində ABŞ və İngiltərə ilə müttəfiq olmalarına baxmayaraq, artıq müharibənin sona çatmasına doğru SSRİ-nin təcavüzkar planları üzündən müttəfiqlər arasında "çatlar" yaranmağa başlamışdır. ABŞ-dəki erməni təşkilatlarının bu fəaliyyətinin Moskvadan idarə edildiyini söyləmək mümkündür. Bu fikiri SSRİ-nin BMT-dəki daimi

nümayəndəsi A.Y.Vışıniskinin 1947-ci ilin noyabrın 24-də adıçəkilən qurumda çıxışı zamanı erməni təşkilatlarının ünvanladıqları məktublarda qeyd olunan məlumatların, və eləcə də ayrı-ayrı mətbu orqanlarda işıq üzü görən yazıların həqiqətə uyğun olmasını söyləməsi təsdiq etmiş olur [5, s. 87-88]. SSRİ ali hakimiyyət nümayəndələrinin ən yüksək səviyyədə Türkiyəyə qarşı ərazi iddialarını səsləndirməsi sovet Ermənistanında Azərbaycan və Gürcüstana qarşı ərazi iddialarının irəli sürülməsi üçün şərait yaratmış olurdu. Əslində İ.Stalin və digər ali hakimiyyət nümayəndələrinin planı Türkiyənin şərq ərazilərini ələ keçirmək və boğazlarda əlavə üstünlüklər qazanmaq idi. Erməni məsləsi isə sadəcə olaraq bu planı reallaşdırmaq üçün "alət" kimi sitifadə olunurdu.

## *Nəticə*

Tədqiqat nəticəsində qeyd olunan zaman çərçivəsində azərbaycanlıların dədə-baba torpaqlarından-Ermənistan SSR ərazisndən ikinci kütləvi deportasiyası Kreml rəhbərliyinin apardığı milli siyasətdən kənarda mövcud olmadığı qənaətinə gəlinir. Bununla yanaşı həyata keçirilən kütləvi deportasiya lokal səciyyə daşımayıb, əslində II Dünya müharibəsinin böyük maddi və insan itkisi hesabına qalib dövləti olan SSRİ-nin təcavüzkar siyasətinin bir seqmenti olaraq reallaşdırılmışdır. II Dünya müharibəsinin sonunda SSRİ-nin Mərkəzi və Şərqi Avropada hərbi üstünlükləri onun Türkiyəyə boğazlarda müstəsna hüquqlar tələb etməsi və ərazi iddiaları irəlü sürməsinə şərait yaradırdı ki, "erməni məsələsi"nin yenidən gündəmə gəlməsi həmin təcavüzkar niyyəti reallaşdırmaq üçün alət kimi seçilmişdir. Aparılan tədqiqat nəticəsində aydın olur ki, müharibə illərində Kreml rəhbərliyinin Şimali Qafqaz xalqları və Krım türklərinə qarşı həyat keçirdiyi deportasiyada "alman təhlükəsi" və SSRİ-nin "təhlükəsizlik qayğıları"ndan irəli gələn addım kimi qiymətləndirmə azərbaycanlıların deportasiyasına şamil edilməsi mümkünsüzdür. Əksinə, azərbaycanlıların deportasiyası qalib SSRİ tərəfindən məhz Türkiyəyə qarşı eksponsionost siyasətin tərkib hissəsi kimi aparılmışdır. Ermənistan SSR ərazisində azərbaycanlıların çox sayda yaşamaları və Türkiyə ilə etnik mədəni bağlılığın reallıqdan uzaq şəkildə şişirdilərək qeyd olunan siyasətin həyata keçirilməsi yolunda real təhlükə hesab edilməsi prosesin ideoloji əsasını təşkil etmişdir. Kreml tərəfindən bu məkrli planı həyata keçirməyə erməni kilsəsi və diaspora təşkilatları yaxından cəlb olunmuşdur. İlk dəfə geniş çapda 1877-1878-ci illər rus-türk müharibəsinin yekunu-San-Stefano və Berlin konfrranslarının gedişində meydana çıxan "erməni məsələsi" yeni çağda, yeni formatda dirilmişdir. Həyata keçirilən deportasiya sovet rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı özündə etnik təmizləmənin xüsusiyyətlərini əks etdirən tarixi ədalətsiz bir hadisə olmaqla yanaşı, həm də Türkiyəyə qarşı irəli sürülən ərazi iddialarını təmin edilməsi üçün tarixən mövcud olmuş "erməni məsələsi"ndən insturmental istifadənin yeni bir təzahürü kimi dəyərləndirilə bilər.

## ƏDƏBİYYAT

1. ARDA, f.28, siy 4, iş.3, v. 184.
2. Сафрастян Р. Советский Союз и армянский вопрос (1945-1947 гг.). Газ., «Республика Армения», Ереван, 8 января 1991, №6.
3. Соцков Л.Ф. Неизвестный сепаратизм: На службе СД и Абвера: Из секретных досье разведки (2003), 336 с.
4. Степанов М. Г. Депортация калмыков и северокавказских народов СССР в период великой отечественной войны (1941-1945 годы): Краткие историографические заметки. Вестник Челябинского государственного университета. 2009. № 38 (176). История. Вып. 37, с. 166–170.

5. Делегация СССР, УССР и БССР на второй сессии гене ральной Организаций Обединненых Нации (сборник речей и выступлений сентябрь-ноябрь 1947 г.). Москва: Госполитиздат, 1948, 557 с.
6. Həsənli C.P. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, "Adiloğlu" nəşriyyatı - 2005, 544 s.
7. İltər E. Ermeni kilsesi ve terör. Ankara: "Köksav", 1994, 110 s.
8. Qasımov M.C, Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr, 1900-1946-cı illər). Bakı, " BDU", 1998, 370 s.
9. Qurbanlı Ə.C. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən:1947-1953-cü illər. Bakı, Turxan NPB, 2018, 168 s.
10. Мошкин С.В. Забытая депортация. О насильственном переселении этнических азербайджанцевс территории Армянской ССР в 1948–1953 годах. Исторический курьер. 2020. № 4 (12) с. 120-130.
11. Ржешевский О.А. Сталин и Черчилль. Встречи. Беседы. Дискуссии: Док., коммент., 1941-1945. Ин-т всеобщ. истории РАН, М. «Наука», 2004, 564 с.
12. Тегеран-Ялта-Потсдам: Сборник документов. Сост. Ш.П.Санакоев, Б.Л.Цыбулевский. М.: Международные отношения, 1971, 416 с.

УДК 94(479.24)

*Айтен Фирдовси кызы Махаррамова*
*Азербайджанский Университет Языков*

## ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ АРМЯНСКОЙ ССР (1948–1953 ГГ.) В КОНТЕКСТЕ ТЕРРИТОРИАЛЬНЫХ ПРЕТЕНЗИЙ СССР К ТУРЦИИ
### *РЕЗЮМЕ*

*Ключевые слова:* СССР; Турция; территориальные претензии; депортация; Вторая мировая война; 1948-1953 гг.

Во время Второй мировой войны и в послевоенный период политика депортаций и этнических чисток, проводимая на территории СССР - наследника царской России, часто называемой «тюрьмой народов», - осуществлялась империей с целью предотвращения предполагаемой «угрозы». Этим политикам предшествовало утверждение, что подвергающиеся насильственному переселению народы вступали в сотрудничество с капиталистическими странами, прежде всего с Германией и Турцией, что расценивалось как «измена родине». Интересно, что хотя народы Северного Кавказа в основном депортировались именно в связи с указанными обстоятельствами, депортация азербайджанцев с их исторических земель-территории Армянской ССР-произошла после окончания Второй мировой войны, когда СССР уже укрепил свои позиции как победившее государство. Исследование показывает, что депортация азербайджанцев была инициирована на фоне растущего давления в контексте территориальных претензий СССР к Турции, касающихся восточных провинций Анатолии, включая Карс, Ардахан и прилегающие территории, которые, как предполагалось, должны были быть официально переданы Москве.

UDC 94(479.24)

*Aytan Firdovsi Maharramova*
*Azerbaijan University of Languages*

# THE DEPORTATION OF AZERBAIJANIS FROM THE ARMENIAN SSR (1948–1953) IN THE CONTEXT OF THE USSR'S TERRITORIAL CLAIMS AGAINST TURKEY

*SUMMARY*

*Keywords:* USSR; Turkey; territorial claims; deportation; World War II; 1948–1953

During World War II and the subsequent period, the deportation and ethnic cleansing policies carried out in the USSR-a continuation of Tsarist Russia, often described as a "prison of peoples"-were implemented by the empire to preempt perceived "threats" posed by certain populations. These policies were justified by the alleged collaboration of the affected peoples with capitalist countries, particularly Germany and Turkey, which was construed as "treason against the homeland." Interestingly, while the peoples of the North Caucasus were largely deported in connection with these concerns, the deportation of Azerbaijanis from their historical lands-the territory of the Armenian SSR-occurred after World War II had ended, at a time when the USSR had firmly consolidated its position as a victorious state. The research demonstrates that the deportation of Azerbaijanis was initiated against the backdrop of escalating pressures within the context of the USSR's territorial claims against Turkey, specifically regarding the eastern provinces of Anatolia, including Kars, Ardahan, and surrounding areas, which were to be formally ceded to Moscow.

**Daxil oldu: 18.02.2026-cı il**